# Vəfa örnəyi



Ramilə QURBANLI

Özünü, həyat yolunu, fəaliyyətini, yaradıcılığını canlı-canlı öz gözlərimizlə görüb izlədiyimiz Xəlil Rza Ulutürkün özü qədər xanımı da mətindir, sədaqətlidir. Firəngiz xanımla söhbətimiz yalnız Xəlil Rza, oğlu Təbriz barədə olmadı, bizdən asılı olmayaraq onların timsalında Azərbaycanın müəyyən bir dövrünün tarixini varaqladıq.



### ONLAR BELƏ SEVİBLƏR

Sədaqətli olmaq insanın genindən gəlir. Nəslimizdə ikinci nigaha girən olmayıb. Xəlil də mənə sədaqətli idi. Bu vəfa, etibar bir-birimizdən o birinə keçib xarakterimizə hopmuşdu. Tanışlığımız universitet auditoriyasından başlamışdı. Xəlil filalogiyada, mən tarix fakültəsində oxuyurduq. Yoluma qığılcım kimi çaxdı, alov kimi püskürdü. Gözlərimin ondan başqasını görməyə də ixtiyarı olmadı. Keçdi şantaj yoluna, əvvəl qorxumdan görüşünə razılıq verirdim ki, təki küçəmizə gəlməsin, yan-yörəmdə görünməsin. Kitab verirdi oxumağa, sonra onu alıb başqasını vermək üçün yenidən məni çağırırdı universitetin başqa fakültəsinə. Onun hər addımımda yoluma çıxmasına o qədər alışdım, bir gün hiss etdim ki, görməsəm darıxaram. Başladı mənim də gözlərim onu axtarmağa. Bilmirdim sevgi idi, yoxsa nə, axır ki, ondan başqasını görmək istəmədim. Qovuşmağımıza maneələr çox idi, anam məni rayona vermək istəmirdi, qohum-əqraba razı deyildi. Bir varlı qohumumuz vardı, məni ona vermək istəyirdilər, anam deyirdi kasıbın birini neyniyirsən, gərək əlimiz üstündə olsun, amma bu birinə getsən gəlinlik xalatın neft buruqları olacaq. Atam dedi kimi istəsən, ona gedəcəksən.

Evliliyimizin ilk illəri çox ağır oldu, evsiz-eşiksiz, kirayə qalırdıq. Moskvaya Nəriman Həsənzadə ilə təhsil almağa gedəndə isə onun xanımı ilə sözü bir yerə qoyub onlar çağırmamış biz getdik arxalarınca. İçimdə qorxu vardı ki, Xəlilin acığı tutacaq, əksinə dedi ki, siz bizdən qəhrəmansız, biz fikirləşincə siz özünüz gəldiniz. Sonra da 7 il övladımız olmadı. Qaynanam söz atırdı, deyirdi buzovumuz bu illərdə inək olub balaladı... Bircə Xəlil arxa idi mənə, deyirdi mənim övladlarım əsərlərimdir, darıxma. Deyirdi bizi birləşdirən tellər var.

### 7 İL YOL GƏLƏN SƏADƏT

60-cı illərdə azadlıq şeirlərinə görə incitdilər bizi. O qədər gərginlik yaranırdı ki, ailəyə də sirayət edirdi. Sonrakı illərdə isə dalbadal zərbələr aldıq taledən, 90-cı ildə o, həbsə düşdü, 92-də Təbriz şəhid oldu, 94-də Xəlil özü. Ömür boyu Xəlil heç vaxt səsinin tonunun mənə qaldırmadı ki, indi yadıma salıb kitablarını çap etdirməkdən daşınım. Bəzən evdə xörək bişirməyə vaxtım çatmırdı, mühazirəm olurdu gedirdim. Təbriz balam deyirdi ki, ata, bir gün də belə arvadı saxlamaram. Məni ayağa vermirdi, deyirdi ananız adi qadın deyil, cəmiyyətin övladlarını yetişdirir, sabahımızın, gələcəyimizin xatirinə biz bir şey tapıb yeyərik. Hərdən Marksın, Engelsin üstündə dalaşardıq. Onları əzbərləyirdim ki, auditoriyaya girəndə tələbənin gözünün içinə danışım.

Tanrı dözümümüzə görə 7 ildən sonra Təbrizi verdi bizə. Qurban olduğum verdi, amma axıra qədər yox. Müharibənin qızğın vaxtlarında Təbriz dedi ki, könüllü cəbhəyə gedirəm, artıq məsələni həll edib evə bizimlə vidalaşmağa gəlmişdi. Nə mən, nə də Xəlil ona getmə deyə bilmədik, onu artıq elə yetişdirmişdik, desək də xeyri olmayacaqdı. Deməyə də dilimiz gəlməzdi, çünki ömür boyu təlqin etdiyimiz qarşımıza çıxmışdı. Xəlil dedi "uğur olsun, oğul". Onsuz da 88-dən olmayan rahatlığımız tamam pozuldu. Bir gün səhər qəzetləri köşkdən alıb gətirib Xəlilə verdim, özüm keçdim mətbəxə. Bir də eşitdim ki, Xəlil fəryad qoparıb "Can bala, sən mənim əqidəmin, yolumun qurbanı odun." Gördüm ki, Təbrizi itirmişik, dedim heç olmasa Xəlili itirməyim. Tez dedim ki, Xəlil, noolsun oğul böyütmüşük ki, vətən yolunda getsin də. Bu yandan da gəlin başladı hayqırmağa, qaldım ikisinin arasında, amma təsəvvür edin ki, öz bağrım necə parçalanırdı.



### 9 AYLIQ AYRILIQDA 18 GÖRÜŞ

20 yanvar şəhidlərinin 7-də Xəlil meydanda çıxış edib düşəndə tutmuşdular, ordan da düz Moskvaya Lefortovaya aparmışdılar. 9 ayda düz 18 dəfə görüşünə getdim. Deyirdi gəlmə, əziyyət olur sənə, yolda erməniyə rast gələrsən. Deyirdim nə danışırsan bir görüşdən gedib o biri görüşə qədər ancaq yaşayıram. İlk vaxtlar görüşə əlləri qandallı çıxırdı, ən dəhşətli günlərim idi o günlər. Onu hər əlləri qandallı görəndə o dünyanı görüb qayıdırdım. Apardığım yeməkləri elə acgözlüklə yeyirdi ki, ürəyim parçalanırdı, amma mənə deyirdi elə bil yaradıcılıq ezamiyyətindəyəm, Puşkini, Lermantovu tərcümə edirəm. Orda yazmışdı:

*And olsun vətənimin qarsalanmış daşına*
*Yüz-yüz general dəyməz sənin bir göz yaşına.*
*Bahar kimi gəlmişəm, günəş kimi qarşıla*
*Camalından utansın ruhu keçəl, beyni daz,*
*Canavarlar önündə gülüm, ağlamaq olmaz.*

Burda qəzetlər onun azadlığı üçün materiallar çap etdirir, məqalələr yazırdılar. Görüşəndə bilmirdim otaqda qurulan kameraların gözündən yayındırıb o qəzetləri ona necə verim. Bir dəfə apardığım yeməkləri həmin qəzetlərə büküm, orda da qəzeti açıb xörəkləri üstündə qoydum. İndi söhbət edə-edə barmaqlarımı materialın üstünə döyəcləyirəm. Xəlil də ikranı görüb unudub hər şeyi, nəhayət, material gözünə sataşdı, çox kövrəldi. Bildi ki, onu burda dəstəkləyirlər, tələb edir, gözləyirlər.



### SAĞLIĞINDA 28, ÖZÜNDƏN SONRA 40 KİTABI ÇIXIB

Yarımçıq qalan əsərlərini, tərcümələrini tamamlamışam. 5 arvad lazımdır ki, onun arxivini bir tərəfə çıxara bilsin. Özü 28 kitabını çap etdirmişdi, mən 40-nı çap etdirmişəm, hələ tale imkan versə yenə çap etdirəcəm. Onun yolu, əməlləri gələcək nəsillər üçün çatdırılmalıdır, çünki gözəl örnəkdir. Ayrı-ayrı adamlar bunu başa düşdüyündən mənə maliyyə köməyi edirlər. Yaxşı ki, ulu öndər Heydər Əliyev sağlığında mənə maşın, sürücü təyin etmişdi, yoxsa bu işləri görə bilməzdim, ayaqlarım yaxşı işləmir. İndi görmək istədiyim işlər üçün pul ehtiyacı çəkəndə düşünürəm ki, kaş, maşını özüm sürə biləydim, sürücüyə verilən əmək haqqını yığıb filan kitabı çap etdirəydim. Ömür boyu abır-həya ilə yaşamışıq. Sağlıq olsun, təki uğurunda Təbrizimi, Xəlilimi itirdiyim amala, məqsədə qovuşaq. Bundan sonra başqa rəng geyinə bilmərəm, oturub baxırlar mənə (gözlərinin işarəsi ilə Xəlil Rza ilə oğlu Təbrizin divarları bəzəyən şəkilləri göstərir), deyir görüm anam neynəyir. Bir də ki, başqa rəngdə paltar almağa əlim də gəlmir. Nə qədər Təbrizin qurban getdiyi amal yarımçıq qalıb, Qarabağ yad əllərdədir, mən onun itkisi ilə barışa bilmərəm. Bəlkə Qarabağı geri alaq, onda Təbrizin dərdini çəkmərəm. Hələ ki, bu dərd çox ağırdır.